bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi

♡ ♡ ♡ ♡ ♡

Ürək ver

Günel Əkbər

# Şokolad Ayı



illüstrator Ramil Əliyev

Simurq

| | |
|---|---|
| Baş redaktor: | Amin |
| Redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |

**Günel Əkbər**
**ŞOKOLAD AYI**

Bakı, "Simurq" Nəşriyyatı – 2025, 136 səh.

**© Günel Əkbər / 2025**
**© Parlaq İmzalar MMC / 2025**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Simurq Nəşriyyatı | 20

ISBN 9952580600-0
9789952580600

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
APREL / 2025

**Günel Əkbər** 16 yanvar 1994-cü ildə Naxçıvanda anadan olub. 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji fakültəsinin ibtidai sinif müəllimi ixtisasını bitirib. 2016-2018-ci illərdə Bakı şəhəri 322 nömrəli məktəbdə ibtidai sinif müəllimi kimi fəaliyyət göstərib.

2018-2020-ci illərdə Türkiyənin On Doqquz May Universitetində Təhsilin Qiymətləndirilməsi və Monitorinqi ixtisası üzrə magistratura təhsili alıb.

2021-ci ildən etibarən Bakı şəhəri Kamil Əyyubov adına 12 nömrəli məktəbdə ibtidai sinif müəllimi olaraq fəaliyyət göstərir.

Beynəlxalq və yerli konfranslarda spiker, debat təlimçisi olan Günel Əkbər altıillik pedaqoji fəaliyyəti ərzində dövrün tələblərinə uyğun şagird yetişdirərək onların oxuyub-anlama, dinləyib-anlama, komanda işi, özünü sərbəst ifadəetmə kimi bacarıqlarının inkişaf etdirilməsinə çalışır.

*Bütün şagirdlərə...*

# İNQREDİYENTLƏR:


## ƏMİ

Əminin nağılları • 13
Sevimli əmi • 20
Əmi və uşaqlar • 25
Yay tapşırıqları • 27
Hava limanı • 30

## ŞOKOLAD

Kanadalı ayı • 35
Şokolad şəhəri • 41
İlk afərin • 48
Uğurun dəcəllikləri • 55
Babalandiya • 62
Totemçilik • 76
Babalandiya axşamları • 86

## DETEKTİV


Şokoladın itməyi • 101

Şagirdlərin zarafatı • 106

İtirmək və tapmaq • 108

Axtarış • 113

Oyuncaqlar Günü • 119

BTV • 122

19:00 • 126

# I hissə

# əMİ

# ƏMİNİN NAĞILLARI

Leyla yataqda uzanmışdı. Əmisi onlarda olanda Leylaya və Uğura qəribə nağıllar danışırdı. Leylanın balaca qardaşı İmperator Uğur isə evdə yox idi, babasıgilə getmişdi. Ancaq o da bu qəribə nağılları xoşlayırdı.

Leyla əmisini çağırdı.

– Bəli, çiçəyim, canım mənim.

– Can əmi, bir nağıl de!

Əmisi gülümsündü.

– Ömrüm-günüm, yat daha.

– Yox, əmi, bir nağıl de.

– Ağrın alım, sözə bax, evdə səndən savayı görheç varmı bir oyaq?

– Deməsən, yatmayacam, – Leyla əmisinə şirin bir xox gəldi.

– Yaxşı, mənim şokoladım, çay süzüm, gəlirəm.

Leyla yerində dikəldi. Əmisi özünə bir çay süzüb gəldi. Saat on iki olardı. Əmi gəldisə, Leyla üçün tez yatdı yox idi. Əmi nağılı danışmağa başladı.

– Leyla, indi sənə danışacağım nağıl bir az, necə deyim... qəribə nağıldı!

– Qəribə nağıl? – Leyla gözlərini bərəldib əmisinə baxdı. – Danış görək!

– Nağılın adı...

## QARIŞQA FİL OVUNDA

– Biri var idi, biri yox idi, bir qarışqa var idi. Bu qarışqa elə-belə qarışqa deyildi, çox iddialı idi! Özünü planetin ən güclü qarışqası hesab edirdi. Bir gün dostları ilə oturub çay içirdi.

*(Bu qarışqa çayı mixəkli xoşlayırdı.)*

– Mən elə güclüyəm ki... Sabah gedib fili udacam!

*(Axırıncı dəfə bir dənə buğda udmuşdu.)*

Bütün qarışqalar çaylarını püskürdülər! "Fili? Udmaq? Sən?!" Hamı gülüşdü. Ancaq bizim qarışqanın zarafatla arası yox idi.

*(Qarışqa məktəblərə yoxlamaya gedirdi.)*

Dostları gözlərini döyüb ona baxdılar. Biri güldü, biri təəccübləndi, biri də “Nə deyim, vallah!..” deyib çiynini çəkdi.

Qarışqa şalvarını *(əgər qarışqaların şalvarı olsaydı)* yuxarı çəkib yola çıxdı.

Qarışqa əyninə superqəhrəman plaşı geydi *(əslində, quru yarpaq idi)* və özündən razı halda filin yanına getdi.

Fil sakitcə oturub banan yemək istəyirdi. Bananı ona Meymun vermişdi. Verəndə demişdi ki, bunu soyub yeməlisən. Fil də soymağı bacarmırdı deyə bunun üçün bir nəfər axtarırdı.

*(Fil bananı niyə qabıqlı yemirdi, görəsən?!)*

Qarışqa qarşısına keçib qışqırdı:

– Ey fil, məni dinlə! Mən səni udmağa gəlmişəm! Bax, əvvəlcə səni az-az dişləyəcəm, sonra səni udacam – luup! Üstündən də su içəcəm. Qurt-qurt. Sonra dişimi çöplə təmizləyəcəm. Nıç-nıç.

*(Əslində, qarışqa qocalmışdı, ağzında üç-dörd dişi qalmışdı.)*

Fil bananı yeyə-yeyə aşağı baxdı:

– Bağışla, cənab, necə, eşitmədim, kim məni udur?

*(Əslində, filin qulağı çox yekə idi, onunla məzələnirdi.)*

Qarışqa sinəsini qabardıb dedi:

– Mən! Super qarışqa!

Fil başını qaşıdı:

– Bax mənim çəkim beş tondan çoxdu. Sən isə bircə qramsan.

*(Fil son vaxtlar dieta saxlayırdı, ona belə ət-tökən söhbətlər lazım idi.)*

– Bilirəm! Ola bilər ki, mən balacayam, amma sən də çox dadlı görünürsən!

Fil təəccübləndi:

– Dadlı? Mən buğda deyiləm axı!

Qarışqa başını yellədi:

– Buğdadan da dadlısan! Mən sənin haqqında çoxlu araşdırma aparmışam!

*(Buğda yemək təhlükəlidir.)*

Fil gözlərini bərəltdi:

– Araşdırma? Kimdən?

Qarışqa şübhəli şəkildə güldü:

– Şirlərdən!

– Yaxşı, məni necə udacaqsan? Planın nədi?

Qarışqa özünü çox ciddi aparırdı:

– Əvvəlcə xortumundan başlayacam. Yavaş-yavaş qulaqlarına keçəcəm, sonra da... Lupp! Səni udacam!

Fil başını buladı:

– Səncə, bu, məntiqlidi?

Qarışqa bir az düşündü:

– Yox, ancaq mən super qarışqayam.

Fil güldü:

– Bəs məni udandan sonra nə edəcəksən?

*(Qarışqa Fili udsa, o bundan sonra harada yaşayacaq?)*

Qarışqa gözlərini qıyıb dedi:

– Oturub gözləyəcəm ki, həzm olunasan!

Fil gözlərini döyə-döyə baxdı:

– Bəs bu nə qədər çəkəcək?

Qarışqa dodağını dişlədi:

– Bilmirəm... Bəlkə, 200 il?! Ola bilər, 500 il. Hətta 1000 il də çəkə bilər.

*(Ən uzunömürlü qarışqa 28 il yaşamışdı. Onun da adı Uzuntulla idi.)*

Fil dərindən köks ötürdü:

– Yaxşı, bəs nə qədər yaşamağı düşünürsən?

Qarışqa fısıldadı:

– Səni həzm edib bitirənə qədər!

*(Bizim bu qarışqa Uzuntullanın nəvəsi idi.)*

Fil başını buladı və ayağını yerə vurdu:

– Yaxşı, bəs mən həzm olunmaq istəmirəmsə?!

Qarışqa fikirləşdi:

– Bunu heç düşünməmişdim.

*(Uzuntullanın atasının adı Qısatulla, özünün adı isə Durtulla idi.)*

Fil gülümsədi:

– Səncə, başqa nəsə edə bilərsən?

Qarışqa bir az fikirləşdi və sevincək halda dedi:

– Bəli! Gəl restorant açaq! Mən yemək resepti yazaram, sən də reklam edərsən! “Fil qovurması”

*(Durtullanın riyaziyyatdan heç başı çıxmırdı. 16-dan 9-u çıxa bilmirdi.)*

Fil güldü:

– Düz deyirsən, bu plan daha yaxşıdı! Amma bir şərtim var.

– Nə şərt?

– Mən təndirdə yox, kənarda olsam yaxşıdı! Aşpaz kimi.

*(Fil heç vaxt yemək bişirməmişdi.)*

Qarışqa başını qaşıdı:

*(Uzuntullanın nəvəsi neçə vaxt idi çimmirdi, çünki sabunu hara qoyduğunu yadına sala bilmirdi.)*

– Yaxşı, bəs sən olmasan, qovurmanın adı nə olacaq?

– Şabalıd qovurması.

– Onda gəl əvvəlcə gedək şabalıd yığaq. Sonra restorant işinə baxarıq!

Qarışqa gülümsədi:

– Razıyam! Onsuz da səni udmağa elə də həvəsim yox idi!

*(Neçə vaxt idi Durtullanın boğazı ağrıyırdı.)*

– Əmi, bu qarışqa bir sinif yoldaşım var, ona oxşayır! O da həmişə gülməli planlar qurur!

Əmi gülümsədi:

– Əsas odu ki, dostun səni udmağa çalışmasın!

# SEVİMLİ ƏMİ

Leylanın və Uğurun atası dənizdə olarkən əmiləri gəlib onlarda qalırdı. Düz on beş gün. On beş gün, yəni azadlıq.

Əmi hər iki uşağın da ən yaxın sirdaşı, ən əyləncəli dostu, arxa-dayağı idi. Əmi gələndə Leylagildə bayram olurdu. “Uşaqları pis öyrətmə” əminin ən çox eşitdiyi söz bu olurdu.

Əmi gələndə Leylanın gözləri parıldayır, səsi isə qəlbini sevinc və istiliklə doldururdu. Hər ikisi qaçıb onu bərk-bərk qucaqlayırdı. Əmiləri də onları bağrına basıb “mənim fanatlarım görüşüm üçün darıxıblar” deyirdi.

Onlar həmişə bir-birinin tərəfini saxlayırdılar. Əgər ata və ya ana nəyəsə etiraz edirdisə, əmi dərhal Leylanın vəkili kimi onu müdafiə etməyə başlayırdı. Leyla isə hər yerdə əmisini tərifləyirdi: “Mənim əmim dünyanın ən yaxşı əmisidir!”

Əmi Leylagildə olanda vaxt belə keçir:

1. Maraqlı və gülməli nağıllar danışır – hər dəfə Leyla və Uğur bir nağıl istəyəndə elə birini uydurur ki, gülməkdən qarınları ağrıyır.

2. Gizli hədiyyələr qoyur – bəzən Leyla kitabının arasından şokolad, bəzən də Uğur çantasından balaca bir oyuncaq tapır.

3. Ən qəribə suallarına belə cavab verir – "Əmi, niyə göyqurşağını yeyə bilmirik?", "Əmi, ay göydə necə dayanır?" – əmi bütün suallara diqqətlə qulaq asır və elə cavablar verir ki, uşaqlar həm gülür, həm də öyrənirlər.

4. Həmişə onlara dəstək olur – Leyla atasından icazə almaq istəyəndə əvvəlcə əmiyə deyir. Əmi isə gedib atasını razı salır.

5. Gecə qaranlıqdan qorxanda yanlarında olur – "Qorxmayın, mən buradayam, əjdahalar məndən qorxurlar!" – deyib uşaqların qorxusunu aparır.

6. Dərsləri "bilmədən" korlayır – əgər Leylanın ev tapşırığını eləməyə həvəsi yoxdursa, əminin əlindəki çay kitabın üstünə tökülür, təbii ki, "səhvən"!